"Qələmin müqəddəs vəzifəsi xalqın xoşbəxtliyi yolunda xidmət etməkdir"
*Cəlil Məmmədquluzadə*



# ÇIRAQ

31 iyul 2016-cı il № 7 (241) Qəzet 1992-ci ildən çıxır. Siyəzən rayonunun ictimai-siyasi qəzeti. Qiyməti müqavilə yolu ilə

## İYUL AYININ RƏSMİ XRONİKASI



İyulun 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ramazan bayramı münasibətilə Azərbaycan xalqını təbrik etmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev NATO-nun Sammitində iştirak etmək üçün iyulun 7-də Polşanın paytaxtı Varşavaya işgüzar səfərə gəlib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 8-dəVarşavada keçirilən NATO Sammiti çərçivəsində ABS-ın dövlət katibi Con Kerri ilə görüşüb. Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Polşada işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 8-də ATƏT-in Minsk qrupunun həmsədrləri Ceyms Uorlik, İqor Popov, Pyer Andryö və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kaspşik ilə görüşüb.



İyulun 8-də Varşavada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qani ilə görüşüb. Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyi bildirildi.

İyulun 8-də Polşanın paytaxtı Varşavada Natonun Sammiti işə başlayıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Samitin açılışında iştirak edib. NATO-nun Varşava Sammitində Alyansa üzv olan və İSAF proqramına qoşulan tərəfdaş ölkələrdən, BMT, Avropa İttifaqı və digər beynəlxalq təşkilatlardan nümayəndələr iştirak edirlər.

İyulun 8-də Varşavada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Polşa Respublikasının Prezidenti Andjey Duda ilə görüşü olub. Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin səviyyəsindən məmnunluq ifadə edildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 8-də Varşavada Almaniyanın xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri Frank-Valter Ştaynmayer ilə görüşüb. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ətrafında geniş fikir mübadiləsi aparıldı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 9-da Varşavada Fransa Respublikasının Prezidenti Fransua Olland ilə görüşüb. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı geniş fikir mübadiləsi aparıldı. Münaqişənin danışıqlar yolu ilə həllinin məqsədəuyğunluğu bildirildi. Fransa Prezidenti bu məsələnin həllinə fəal dəstək verəcəyini vurğuladı.

İyulun 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.

İyulun 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrovu qəbul edib.

Azərbaycanda rəsmi səfərdə olan Ukrayna Prezidenti Petro Poroşenkonun iyulun 14-də rəsmi qarşılanma mərasimi olub. Rəsmi qarşılanma mərasimi başa çatdıqdan sonra Prezidentlərin təkbətək görüşü olub.

İyulun 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ukrayna Prezidenti Petro Poroşenkonun təkbətək görüşündən sonra iki ölkənin Prezidentləri Şurasının Beşinci İclası olub.

İyulun 14-də ölkəmizdə səfərdə olan Ukrayna Prezidenti Petro Poroşenkonun şərəfinə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından rəsmi ziyafət təşkil edilib.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 15-də Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 15-də İsveçrə Konfederasiyasının maliyyə naziri Ulrix Maurerin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Braziliyanın Rio-de-Janeyro şəhərində keçiriləcək XXXI Yay Olimpiya Oyunlarında iştirak edəcək Azərbaycan nümayəndə heyətinin iyulun 18-də rəsmi yolasalma mərasimi keçirilib. Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

İyulun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana telefonla zəng edib.

Dövlətimizin başçısı Türkiyədə hərbi çevriliş cəhdini qətiyyətlə pisləyərək bildirib ki, Azərbaycan xalqı və dövləti həmişə olduğu kimi, Türkiyə xalqı və dövlətinin yanındadır. Prezident İlham Əliyev çevriliş cəhdinin qarşısının alınması nəticəsində həlak olanların ailə üzvlərinə və Türkiyə Prezidentinə başsağlığı verib, yaralılara şəfa arzulayıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 21-də İtaliya Respublikasının təhsil, universitetlər və tədqiqat naziri xanım Stefania Gianninin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

**AZƏRTAC**



## Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi məqsədi ilə ümumxalq səsverməsi (referendum) keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 3-cü maddəsinin II hissəsinin 1-ci bəndini və 109-cu maddəsinin 18-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. «Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikasının Referendum Aktının layihəsi ümumxalq səsverməsinə (referenduma) çıxarılsın və kütləvi informasiya vasitələrində dərc edilsin
2. Ümumxalq səsverməsi (referendum) 2016-cı il sentyabrın 26-na təyin edilsin.
3. Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası ümumxalq səsverməsinin (referendumun) bu Sərəncamın 2-ci hissəsində göstərilən tarixdə keçirilməsini təmin etsin.
4. Azərbaycan Respublikasının Nazirlər Kabineti ümumxalq səsəvərməsinin (referendumun) maliyyələşdirilməsi ilə əlaqədar zəruri tədbirləri həyata keçirsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 26 iyul 2016-cı il.**

# İLİN 6 AYININ YEKUNLARI TƏHLİL EDİLİB



Siyəzən Rayon İcra Hakimiyyəti başçısı yanında Şura iclası keçirilmişdir. Şura iclasında aşağıdakı məsələ dinlənilərək müzakirə edilmişdir:

«Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası ilə əlaqədar Siyəzən rayonunda 2016-cı ilin birinci yarısında görülmüş işlər və qarşıda duran vəzifələr haqqında.»

İclası Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı Asif Hüseynov açmışdır. Daha sonra Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı Asif Hüseynov müzakirə edilən məsələ ilə bağlı məruzə etmişdir. O, çıxışında diqqəti Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekünlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasına cəlb etdi.

Dünya bazarında enerji resurslarının qiymətinin kəskin şəkildə aşağı düşməsinə baxmayaraq Azərbaycanın sosial-iqtisadi inkişafı ilə bağlı 2016-cı ilin birinci yarısında qarşıya qoyulmuş vəzifələrin uğurla icra olunduğunu əminliklə söyləmək mümkündür. Prezident İlham Əliyev çıxışında bildirdi ki, ötən 6 ay ərzində ölkə iqtisadiyyatına 6,3 milyard dollar sərmayə qoyulub və xarici investorlar üçün Azərbaycan cəlbedici ölkə olaraq qalır. İlin əvvəlindən iqtisadiyyatın əsas sahələrində yüksəliş qeydə alınmışdır. Belə ki, qeyri-neft sənayesi 2,4 faiz, kənd təsərrüfatı3,1 faiz artmışdır. İlin birinci yarısında 78 mini daimi olmaqla 90 min iş yeri açılıb. Sosial tədbirlərin həyata keçirilməsi istiqamətində mühüm işlər görülüb. Maaşlar, pensiyalar 10 faiz artıb, yüz mindən çox ailəyə sosial-yardım ayrılıb, kənd yollarının tiktintisi üçün 200 milyon manatvəsait ayrılıb, sahibkarlara 73 milyon manat kredit verilib. «2016-cı il tarixdə dərin islahatlar dövrü kimi qalacaq» deyən dövlətimizin başçısı strateji enerji və nəqliyyat layihələrinin uğurla icrası istiqamətində tədbirlərin davam etdirildiyini vurğulayıb.

Natiq 2016-cı ilin birinci yarısında Siyəzən rayonunda da müəyyən işlərin görüldüyünü nəzərə çatdırmışdır. Belə ki, ümumi məhsul buraxılışı faktiki qiymətlərlə 57,5 milyon manat olmuş və bu sferada qeyri-dövlət sektorunun xüsusi çəkisi 68,7 faiz təşkil etmişdir. Ötən yarımildə əhalinin pul gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 5,4 faiz, adambaşına düşən məbləğ isə 4,6 faiz artmışdır. Rayon üzrə 431 yeni daimi iş yeri açılmış, sənaye məhsulunun ümumi həcminin 95,4 faizi dövlət mülkiyyətinin, 4,6 faizi xüsusi mülkiyyətin payına düşmüşdür.

Rayon üzrə tikinti sahəsində görülmüş işlərə toxunan natiq Bakı-Quba-Rusiya Federasiyası dövlət sərhəddi avtomobil yolunun 104-cü kilometrliyində yoljdan şəhərin H. Talıbov küçəsinə qədər eni 7 metr, uzunluğu 245 metr olan avtomobil yolu təmir olunaraq asfalt örtüyü vurulmuşdur. H. Talıbov küçəsinin abadlaşdırılması ilə əlaqədar yol kənarına 1470 metr bardur, 400 kv. metr səki daşı düzülmüş, küçənin işıqlandırılması üçün 23 ədəd işıq dirəyi quraşdırılmış, 1000 metr uzunluğunda elektrik xətləri yenisi ilə əvəz olunmuş və küçəyə 3600 kv. metr asfalt döşənmişdir. Heydər Əliyev küçəsi 29 və 31 nömrəli çoxmənzilli yaşayış binalarında, Tofiq İsmayılov küçəsi 51 nömrəli çoxmərtəbəli yaşayış binasında təmir işləri aparılmışdır.

Şəhərin Ş. Baxşıyev, H. Aslanov, İ. Qayıbov, M. P. Vaqif, 20 Yanvar, S. Dağlı, B. Bayramov və Xətai küçələrində təmir işlərinin aparıldığını və bundan sonra da davam etdiriləcəyini vurğulayan icra başçısı daha sonra rayonda aqrar sahənin inkişaf tempi barədə danışmışdır. Yazlıq bitkilərin əkilməsi ilə əlaqədar həyata keçirilən tədbirlər nəticəsində əvvəlki illərlə müqayisədə daha çox kənd əhalisi bui şlə məşğul olmağı qərara almışdır. 193 hektar dən üçün qarğıdalı, 175 hektar tərəvəz, 129 hektar bostan, 101 hektar yonca, 5 hektar dən üçün günəbaxan və digər yazlıq bitkiləri əkilmişdir ki, bu da əvvəlki illərlə müqayisədə 60 faiz çoxdur.

Çıxışının sonunda hörmətli İcra başçısı iştirakçılara müraciətlə görülmüş işlərlə kifayətlənməməyi, 2016-cı ilin ikinci yarımilliyində də qarşıda duran vəzifələrin öhdəsindən layiqincə gəlməyin vacibliyini vurğulamışdır.

Məruzə ətrafında müzakirələrdə maliyyə şöbəsinin rəisi Samir Nemətov, Siyəzən rayon elektrik şəbəkəsinin rəisi Namiz Məhərrəmov, çıxış etmişlər.



Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı Asif Hüseynov Şura iclasında yekun sözlə çıxış edərək bildirmişdir ki, birinci yarımilliyin yekununa görə rayonumuzun uğurları çox olmuşdur. Daimi iş yerləri yaradılmış, şəhərdə yolların xeyli hissəsinə asfalt verilmişdir. Kənd təsərrüfatı sahəsində əkin mədəniyyətini qabarda bilmiş, suvarma kanallarını təmir etmişik. Bunun nəticəsidir ki, bazarlarda ucuzluq yaranmışdır. Onu da qeyd etməliyik ki, əvvəllər bu sahədə çoxlu şikayətlər eşidirdik. Uzun illərdir zəbt olunmuş sahələri əkin dövriyəsinə daxil etmişik. Bir sözlə, uğurlarımız çox olsa da, fəaliyyətimizi daha da genişləndirməliyik. Və sonda onu deyə bilərik ki, cənab Prezidentin verdiyi tapşırıqlar rayonumuz üzrə uğurla icra olunub.

Yekunda müzakirə olunan məsələ ilə bağlı müvafiq qərar qəbul olunmuşdur.

**«ÇIRAQ»**

## Siyəzən Rayon İcra Hakimiyyəti başçısı aparatında vətəndaşların qəbulu CƏDVƏLİ

| Sıra № | Vəzifəsi | Soyadı, adı və atasının adı | Qəbul günü | Qəbul saatı |
|---|---|---|---|---|
| 1 | Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı | Hüseynov Asif Həbib oğlu | çərşənbə axşamı | saat 11:00-dan başlayır |
| 2 | Başçının müavini-Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri | Əliyev Zəfər Nüsrət oğlu | bazar ertəsi | saat 14:00-dan başlayır |
| 3 | Başçının müavini-İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri | Bəxtiyarova Təhminə Vahid qızı | çərşənbə | saat 14:00-dan başlayır |
| 4 | Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri | Bəşirov Xaqani Paşa oğlu | cümə | saat 11:00-dan başlayır |
| 5 | Hüquq şöbəsinin müdiri | Əliyev Şəmşad Məcid oğlu | şənbə | saat 11:00-dan başlayır |
| 6 | Memarlıq və tikinti şöbəsinin müdiri-baş memar | Novruzov Səxavət Mehdi oğlu | bazar ertəsi | saat 10:00-dan başlayır |
| 7 | Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri | Mursaquliyev Feyyaz Lətifulla oğlu | cümə axşamı | saat 10:00-dan başlayır |
| 8 | İnformasiya təminatı və təhlil sektorunun müdiri | Mürvətov Rəhman Nəcməddin oğlu | çərşənbə | saat 10:00-dan başlayır |

**Qeyd:** 1. Milli qəhrəman və onların ailə üzvləri, şəhid ailəsi üzvləri, Qarabağ əlilləri və digər imtiyazlı şəxslər növbədənkənar qəbul olunurlar.
2. Rayon İcra Hakimiyyəti başçısının qəbulu günləri bayram günlərinə düşdükdə qəbul növbəti iş gününə keçirilir.
3. Vətəndaşların qəbulu ilə əlaqədar əlaqə telefonu: (23) 304-00-10

## Siyəzən Rayon İcra Hakimiyyəti başçısının 2016-cı ilin avqust ayında keçirəcəyi səyyar qəbulların QRAFİKİ

| Sıra №-si | Qəbulun keçiriləcəyi yer | Tarix | Saat |
|---|---|---|---|
| 1 | Yuxarı Ələz kəndi, açıq havada | 19.08.2016 | 15:00 |
| 2 | Yanıq Ələz kəndi, kənd ümumi orta məktəbin binası | 26.08.2016 | 15:00 |
| 3 | Cəndəhar kəndi, açıq havada | 31.08.2016 | 15:00 |

## Dövlət orqanlarının yerli qurumlarında vətəndaşların qəbulu CƏDVƏLİ

| S. №-si | Vəzifəsi | Soyadı, adı və atasının adı | Qəbul günü və saatı |
|---|---|---|---|
| 1. | Siyəzən Rayon Gənclər və İdman İdarəsinin rəisi | Məmmədov Nadir Əmrulla oğlu | Cümə günü, saat 10:00-dan başlayır |
| 2. | Siyəzən Rayon Təhsil Şöbəsinin müdiri | Hacıyev Rəfail Məmmədrıza oğlu | Bazar ertəsi günü, saat 10:00-dan başlayır |
| 3. | Siyəzən Telekommunikasiya Qovşağının rəisi | Kəbirov Rafiq Kəbir oğlu | Hər iş günü, saat 15:00-dan başlayır |
| 4. | Siyəzən Regional Müalicə Diaqnostika Mərkəzinin baş həkimi | Hümbətov Dadaş Ümüd oğlu | Hər iş günü, saat 11:00-dan başlayır |
| 5. | Siyəzən rayon Mərkəzi Poliklinikanın baş həkimi | Quliyev Əhməd Əli oğlu | Hər iş günü, saat 10:00-dan başlayır |
| 6. | Siyəzən rayonu Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru | Yaqubov Mehman Nəcməddin oğlu | Bazar ertəsi günü, saat 10:00-dan başlayır |
| 7. | Xaçmaz Regional Qaz İstismar İdarəsinin Siyəzən Xidmət Sahəsi üzrə rəis müavini | Mirzəyev Nizami Rza oğlu | Çərşənbə axşamı və cümə axşamı günü, saat 15:00-dan başlayır |
| 8. | Sukanal İdarəsinin rəisi | Qurbanov Faiq Hacıqulu oğlu | Çərşənbə axşamı və cümə günü, saat 15:00-dan başlayır |
| 9. | Dövlət Sosial Müdafiəsi Fondunun Siyəzən rayon şöbəsinin müdir əvəzi | Məmmədov Ramil Vahid oğlu | Cümə günü saat 16:00-dan başlayır |
| 10. | Siyəzən rayon Əhalinin sosial müdafiəsi mərkəzinin direktoru | Yusifova Kamilə Şəmsəddin qızı | Çərşənbə axşamı və cümə axşamı günü, saat 10:00-dan başlayır |
| 11. | Siyəzən Meşə Mühafizəsi və Bərpası Müəssisəsinin direktor əvəzi | Əlizadə Alim Vidadi oğlu | I, III, IV günlər, saat 11:00-dan başlayır |
| 12. | Siyəzən rayon Baytarlıq İdarəsinin rəisi | Qasımov Seyfulla Eynulla oğlu | Çərşənbə günü, saat 10:30-dan başlayır |
| 13. | Siyəzən rayon Məşğulluq Mərkəzinin direktoru | Heydərov Etibar Murad oğlu | Çərşənbə günü, saat 10:00-dan başlayır |
| 14. | Siyəzən rayonu üzrə Maliyyə Şöbəsinin rəisi | Nemətov Samir Sabir oğlu | Cümə günü, saat 10:00-dan başlayır |
| 15. | «Azərpoçt» MMC-nin Siyəzən Poçt Filialının rəisi | Əliyev Akif Hacı oğlu | Bazar ertəsi və cümə axşamı günü, saat 14:00-dan başlayır |
| 16. | Siyəzən Rayon Mədəniyyət və Turizm şöbəsinin müdiri | Qədirli Zəminə Əlikram qızı | Cümə günü, saat 10:00-dan başlayır |

**Qeyd:** 1. Milli qəhrəman və onların ailə üzvləri, şəhid ailəsi üzvləri, Qarabağ əlilləri və digər imtiyazlı şəxslər növbədənkənar qəbul olunurlar.

# QƏZETƏ KÖMƏK OLUNMALIDIR

Azərbaycan xalqının mədəniyyəti tarixində görkəmli maarifpərvər və təbiətşünas alim Həsən bəy Zərdabi 141 il bundan əvvəl «Əkinçi» qəzetində yazırdı: «Bir aydır bizim qəzet çap olunur. Amma onu oxuyanların bu vaxtadək biz çəkdiyimiz zəhmətlərdən xəbəri yoxdur. Əlbəttə, bu işə girəndə o zəhmətləri biz qəbul etmişik. Ona binaən indi onları izhar etməyi lazım bilmirik. Amma bizə məlumdur ki, bəzi kəslər bizim işə artıq diqqət edirlər.»

24 ildir ki, (qısa sürən fasilələri nəzərə almasaq) «Çıraq» qəzetini çap edirik. Lakin eynən 141 il bundan əvvəl H. Zərdabinin dediyi kimi. Oxuyanların çəkdiyimiz zəhmətdən xəbərləri olmadan. Çox da uzaq keçmişə qayıtmıram. Elə cə son durumumuzdan söz açmaq istəyirəm. Əziz oxucu, siz bilirsinizmi ki, hər nömrə çapa gedəndən sonra növbəti sayın işıq üzü görəcəyinə əmin-arxayın olmadan işə başlayırıq. Bunun nə dərəcədə üzücü olduğunu təsəvvür edirsiniz? Bəli, mənzərə bax, bundan ibarətdir.

İnternetin imkanlarını nəzərə alsaq, müasir dövrümüzdə qəzetin çap variantını qoruyub saxlamaq etiraf etməliyik ki, olduqca çətindir. Lakin bir məsələni də unutmamalıyıq ki, qəzetin istər internet, istərsə də kağız variantı olsun onu hazırlayıb ərsəyə gətirən kollektivi olur. Kollektivin saxlanılması üçünsə maddi vəsait olmalıdır. Bu vəsaitin əldə olunmasının ən populyar yolları təsisçi-sponsor, satış və abunənin yaratdığı imkanlardır.

Bu haqda mən bir mötəbər tədbirdə də danışmışam. Türkiyədə olarkən ərzaq mağazasında alıcılara pulsuz paylanan «Sabah» qəzetini gördüm. Qəzet A2 formatda, bahalı kağızda, rəngli və səhv etmirəmsə 24 səhifədə çap olunmuşdu. İlk səhifələri dövlət siyasətinə, qalanları isə reklam və elanlara həsr olunmuşdu. Buna baxmayaraq, qəzet gündəlik çapını qoruyub saxlayırdı.

Bütün bunlarla nə demək istəyirəm? «Çıraq» kimi xərcləri ümumilikdə ayda 650 manat təşkil edən qəzeti saxlamaq əslində gərək çətin olmayaydı. Çünki bir rayon üçün bu, çox kiçik rəqəmdir. Qəzetin çapı ilə bağlı ayda bir dəfə olmaqla Bakı şəhərində, «Azərbaycan» nəşriyyatında oluram. Digər rayonların qəzet redaktorları ilə görüşürəm. Təsəvvür edirsinizmi, demək olar ki, bütün rayonların qəzetləri ayda azı iki dəfə çıxır. Ümumi xərcləri isə bizdən yenə ən azı iki dəfə çox olmaqla. Bəzi rayonlar isə hətta iki, üç adda qəzet çıxarırlar. Bax, belə-belə işlər.

Hörmətli oxucularımız! İnanın ki, bizim gücümüz və imkanlarımız onlardan daha artıqdır. Boş yerdən danışmıram. Götürün statistika ilə maraqlanın və nəticə çıxarın. Əhali üzrə işləyənlərin faiz nisbətinə görə rayonumuz nəinki bölgədə, hətta respublikada ən öndə gedənlər sırasındadır.

Sizlərdən yalnız bir şey umuruq-təəssübkeşlik.

**«ÇIRAQ»**

# YARIŞ KEÇİRİLMİŞDİR

14-15 iyul 2016-cı il tarixlərdə Gənclər Mərkəzində Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin yaradılmasının 22-ci ildönümü münasibəti ilə yeniyetmə oğlanlar və qızlar arasında Şahmat üzrə rayon birinciliyi yarışları keçirilmişdir. Siyəzən Rayon Gənclər və İdman idarəsi və Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Siyəzən rayon komitəsi tərəfindən təşkil olunan birincilikdə 8-14 yaş qruplarında 30-dan çox yeniyetmə qalib adı uğrunda yarışıb.

İki gün davam edən yarışda oğlanlar arasında Mehdiyev Bəhlul, qızlar rasında isə Ağayeva Humay I yeri tutaraq, şahmat üzrə rayon birinciliyinin qalibi olublar. Yarışda oğlanlar arasında Əhmədov Rüstəm II, Ağarəhimov Murad isə III yeri tutub. Qızlar arasındakı yarışda Əlifova Rəfiqə və Ağayeva Nuray II və III yerləri bölüşdürüblər.

Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin yaradılmasının 22-ci ildönümü münasibəti ilə yeniyetmə oğlanlar və qızlar arsında keçirilən şahmat üzrə rayon birinciliyinin mükafatlandırma mərasimində yer tutmuş yeniyetmələr təşkilatçılar tərəfindən fəxri fərmanlar və qiymətli hədiyyələrlə mükafatlandırılmışdır.

*6-9 iyul 2016-cı il tarixlərdə Bakı şəhərində yeniyetmələr, gənclər və kişilər arasında sambo üzrə Azərbaycan kuboku uğrunda yarış keçirilmişdir. Yarışda adları aşağıda qeyd olunan rayon idmançıları nəticə qazanmışlar:*

*Yeniyetmələr arasında:*

*1. Əskərov Bahadır (65 kq)-I yer (məşqçi Yavuz Əliyev)*

*2. Qəmbərov Əzizağa (52 kq)-III yer (məşqçi Yavuz Əliyev)*

*3. Səmədov Hikmət (70 kq)-III yer (məşqçi Zaur Həmzəyev)*

*4. Balayev Saleh (70 kq)-III yer (məşqçi Zaur Həmzəyev)*

*Kişilər arasında:*

*1. Hüseynov Ceyhun (82 kq)-II yer Məşqçi Yavuz Əliyev)*

**Nadir MƏMMƏDOV,**
**Gənclər və İdman idarəsinin rəisi.**

# DƏYİRMİ MASA KEÇİRİLMİŞDİR



Siyəzən rayon Gənclər və İdman idarəsi tərəfindən 20 iyul 2016-cı il tarixdə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin yaradılmasının 22-ci ildönümü münasibətilə dəyirmi massa təşkil olunub. «Gələcək gənclərindir» mövzusunda Gənclər Mərkəzində təşkil olunan dəyirmi masada 50-ə yaxın fəal gənc iştirak edib.

Tədbiri giriş sözü ilə rayon Gənclər və İdman idarəsinin rəis müavini Vüsal Alışov açmış, Gənclər və İdman Nazirliyinin yaradılmasının 22-ci ildönümü münasibətilə gəncləri təbrik etmişdir. Qeyd etmişdir ki, gənclərimizin istedadının və potensial imkanlarının aşkara çıxarılması və genişləndirilməsi dövlət əhəmiyyəti daşıyan bir məsələdir. Daha sonra YAP Siyəzən rayon Təşkilatı Gənclər Birliyinin sədri Rəşad Rəhmanov, şəhər 6 saylı lisey-məktəbin tarix müəllimi Pərvin Ağasıyev, Xəzər Universitetinin tələbəsi Ema Niftəliyeva və digərləri çıxış edərək bildiriblər ki, Gənclər və İdman Nazirliyinin yaradılması respublika gənclərinin bütün sahələrdə inkişafına böyük təkan verdi. Ötən dövr ərzindəregionlarda olimpiya idman komplekslərinin şəbəkəsi daha da genişlənmiş, gənclərin bədən tərbiyəsi və idmanla məşğulluğu sahəsində kütləvilik müşahidə edilmişdir. Gənclərimiz göstərilən qayğıya cavab olaraq, müxtəlif sahələr üzrə böyük uğurlara imza atır və cəmiyyətin həyatında fəal rol oynayırlar.

Tədbirdə həmçinin gənclərlə müxtəlif mövzularda müzakirələr aparılmış, dövlət gənclər siyasətinin həyata keçirilməsində göstərdikləri fəallığa görə bir neçə gənc idarə tərəfindən fəxri fərmanlarla təltif edilmişdir.

**Nuran NURULLAYEV,**
**Gənclər və İdman idarəsinin aparıcı-məsləhətçisi.**

# MEŞƏ SAHƏLƏRİ AZƏRBAYCANIN ƏN QİYMƏTLİ MİLLİ TƏBİİ SƏRVƏTİDİR, ONUN YANĞIN TƏHLÜKƏSİZLİYİNİ TƏMİN ETMƏK İSƏ HƏR BİR VƏTƏNDAŞIN BORCUDUR

Təbii hadisələrin tüğyan etdiyi müasir dövrümüzdə heç kim unutmamalıdır ki, hər bir insan bilavasitə və ya dolayısı yolla meşələrlə əlaqədar olur, onun sərvətlərindən bəhrələnir. Meşələr torpaqları eroziyadan qoruyur, su ehtiyatlarının tükənməsinin qarşısını alı rvə havanı sanitariya-gigiyena baxımından saflaşdırır, təbiətdə maddələr mübadiləsində və enerjinin bioloji dövriyyəsində əvəzsiz rol oynayır.

Gözəgörünməz mikroorqanizmləri, vəhşi heyvanları, ağacları, otları, yüzlərlə dərman bitkisini qoynunda bəsləyən meşələr təbiətin ayrılmaz hissƏsi kimi insanların həyat və fəaliyyətində çox böyük əhəmiyyət kəsb edir.

Son 200 ildə dünya üzrə meşə ərazilərinin sahəsi 2 dəfədən çox azalmışdır. XVII-XIX əsrlərdə indiki Azərbaycan ərazisinin 35%-i meşə ilə örtülü olmuşdur. Hal-hazırda Azərbaycan meşələrinin ümumi sahəsi 989,4 min hektardır. Bu da Azərbaycan ərazisinin 11,4%-ni təşkil edir. Bu meşələr Azərbaycan ərazisindən başlamış, Dağıstan ərazisinə kimi `uzanır. Azərbaycanda hər adam başına təqribən 0,12 ha meşə sahəsi düşür ki, bu da ümumdünya miqyasında götürülən müvafiq orta rəqəmdən 4 dəfə azdır. Narahatçılıq doğuran haldır ki, yüz il əvvəl Yer kürəsinin quru hissəsinin 60%-i meşə ilə örtüldüyü halda, indi bu rəqəm 30%-ə enmişdir. Planetdə hər dəqiqədə 44 ha torpaq deqradasiyaya uğrayır, o cümlədən şum altında olan torpaqlar 10-19 hektar azalır. Meşə yanğınları hər il təbiətin neçə hektarlarla misilsiz sərvətini məhv edir. Bu da su qıtlığı, havanın keyfiyyətinin pisləşməsi, onun tərkibində oksigendən fərqli olaraq karbon qazının, digər müxtəlif qazların artması ilə nəticələnir. Meşələrin inkişafına dövlətin qayğı göstərməsinə baxmayaraq, təbiətdə gedən proseslər təbii olaraq Azərbaycandan da yan keçməyir.

Təəssüf hissi ilə qeyd etməliyik ki, bəzən ayrı-ayrı insanların meşə təsərrüfatına qayğısızlığı, onun qorunub saxlanılmasına laqeydliyi meşə ərazisində kortəbii, idarə olunmayan alovun yayılması və bütün ərazidəki bitki örtüyünün təbii surətdə yanması ilə nəticələnən meşə yanğınlarını törədərək təbiətin bu əvəzsiz nemətinin məhv olmasına gətirib çıxarır.

İnsanların həyat və fəaliyyətində mühüm rol oynayan, sözün həqiqi mənasında onların qayğısına qalan meşələrin özünün daim qayğıya ehtiyacı var. Meşələrdən bəhrələnməklə, onun nemətlərindən istifadə etməklə yanaşı, təbiətin bu füsunkar nemətini qorumaq, onu gələcək nəsillərə ərmağan etmək hər bir vətəndaşın borcudur.

Meşələrin məhv olmasının əsas səbəblərindən biri onun xüsusən yay aylarında yanğınlara məruz qalmasıdır. Meşələrimizin yanğın təhlükəsizliyini təmin etmək üçün bir sıra zəruri tədbirlərin həyata keçirilməsi vacibdir.

Meşə təsərrüfatında yanğın təhlükəsizliyinə məsul olan şəxslər yanğın təhlükəsizliyi qaydalarına riayət olunmasına nəzarət etmək məqsədi ilə meşə sahələrinə və zolaqlarına vaxtaşırı baxış keçirməli, yanğın baş verən zaman yanğınsöndürmə xidmətinin hadisə yerinə çağrılması üçün tədbirlər görməli, yanğının söndürülməsi üçün mövcud vəsaitləri təşkil etməlidirlər.

Meşə yanğınlarından bəhs edərkən xüsusilə vurğulanmalıdır ki, bu sahədə baş verən 10 yanğından 9-u odla ehtiyatsız davranmadan və ya meşədə iş və istirahət zamanı insanların yanğın təhlükəsizliyi qaydalarını pozması səbəbindən baş verir. Xüsusi olaraq qeyd etmək lazımdır ki, isinmək, xörək bişirmək üçün qalanmış tonqallar və meşəni tərk edərkən bu tonqalların tam söndürülmədən nəzarətsiz qoyulması meşə yanğınlarına səbəb olur. Söndürülməmiş kibritin, siqaret kötüyünün meşəyə atılması, maşınların mühərrikindən qopan qığılcımlar da yanğın törədir.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, meşədə yanğınların baş verməsinə şərait yaradan əsas səbəblərdən biri tonqallardır. Bunu nəzərə alaraq tonqallarla əlaqədar vətəndaşlara meşələrdə yanğın təhlükəsizliyini təmin etmək məqsədilə bəzi tövsiyələri verməyi məqsədəuyğun sayırıq. Birinci növbədə qeyd etmək lazımdır ki, tonqal yandırılarkən bütün təhlükəsizlik qaydalarına əməl etmək vacibdir. Tonqal heç bir halda ağacın altında (xüsusən də budaqları aşağı sallanan ağacların altında) yandırılmamalıdır. Quru ağac kötükləri və quru ot olan ərazidə də od qalamaq olmaz. Tonqal qalamaq üçün əvvəlcədən yer hazırlamaq və yaxud da köhnə, qalanmış tonqalın yerindən istifadə etmək lazımdır. Tonqal qalamaq üçün ilk növbədə ağaclardan xeyli aralıda yer hazırlamaq məqsədəmüvafiqdir. Həmin ərazi otlardan təmizlənməli, sonra isə yandırılacaq odun parçaları üçün bel vasitəsi ilə çala qazılmalıdır. Tonqal ətrafındakı otları 0,5-1 metr radiusunda təmizləmək lazımdır. Tonqalı söndürüb oranı tərk edən zaman közün üstü torpaqla örtülməlidir.

Meşələrin yanğın təhlükəsizliyini təmin etmək məqsədilə əhatəli təbliğat işi aparılmalı, yanğına qarşı plakatlardan, reklam işlərindən geniş istifadə olunmalıdır. Meşə ilə əlaqəsi olan bütün müəssisələrdə, təşkilatlarda, idarələrdə, əhali arasında, məktəblərdə yanğın təhlükəsizliyi ilə bağlı izahat işlərinə geniş yer verilməlidir. Meşə ilə həmsərhəd olan yaylaqlarda çobanlar, ov mövsümü zamanı ovçular ola ehtiyatlı olmalı və yanğın baş verərsə onun söndürülməsi qaydaları barədə maarifləndirilməlidirlər.

Meşə yanğınları ilə əlaqədar əhali bilməlidir ki, insanlar üçün meşə yanğının təhlükəsi nəinki alovun birbaşa təsirindən, eyni zamanda atmosferdəki güclü oksigen çatışmazlığından, dəm qazının və digər qatışıqların artmasından yaranan zəhərlənmələrdən ibarətdir.

Meşə yanğınları zamanı təhlükəli zonadan uzaqlaşarkən tüstüdən və dəm qazından zəhərlənməyə məruz qalmamaq üçün külək istiqamətində deyil, əksinə hərəkət etmək lazımdır.

Bir daha xatırladırıq ki, hər bir vətəndaş yadda saxlamalıdır ki, meşə yanğınları ağacları, kolları-bütün yaşıllığı məhv edir. Yanğın nəticəsində meşənin bir sıra xüsusiyyətləri itir, fauna məhv olur, yaşayış məntəqələri ziyan çəkir. Bəzi hallarda isə meşə yanğınları insan itkisi ilə nəticələnir, kənd təsərrüfatı heyvanları üçün ciddi təhlükə yaranır. Bunları nəzərə alaraq bir daha vurğulayırıq ki, meşələrdə yanğın təhlükəsizliyi qaydalarına riayət etməklə biz ölkəmizin iqtisadiyyatının inkişafına, vətəndaşlarımızın sağlamlığına xidmət edirik.

**Fövqəladə Hallar Nazirliyinin**
**Dövlət Yanğın Nəzarəti Xidməti.**

## BUNLARI BİLMƏK MARAQLIDIR

1. Heyvanlardan ən çox susuz qala bilən siçandır.
2. Arının 2 qarnı var, biri bal üçün, biri də yemək üçün.
3. İnsan böyüdükcə ürək döyüntülərinin sayı da azalır.
4. Uran planeti adi gözlə görünən yeganə planetdir.

## Məntiqi suallar

***1, 2, 3, 4, 5, 6 rəqəmləri arasında əməl işarələri və mötərizələri elə qoyun ki,cavabda 1 alınsın.***

20 ədəd piroq 20 nəfər arasında hər kişiyə 3 ədəd, hər qadına 2 ədəd, hər uşağa isə bir piroqun yarısı düşür. Neçə kişi, neçə qadın və neçə uşaq var?

***İlin hansısa bir ayında 3 çərşənbə axşamı cüt ədəd oldu. Bu ayda sonuncu cümə günü ayın neçəsi olacaq?***

Üzgüçü çayın axınına qarşı üzərkən körpünün altında papağını salır. Lakin o, bunu 3 dəqiqədən sonra bilir. Ona görə, dərhal geriyə doğru üzür və papağını körpüdən 150 metr məsafədə tutur. Çayın sürətini tapın.

## ALLAH RƏHMƏT ELƏSİN!

Yusif İbrahimov adına Zarat kənd tam orta məktəbin kollektivi məktəbin direktoru Səadət Ələkbərovaya, anası

Ələkbərova Nazxanım Absəd qızının

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verir.

Redaktor
İlyas İLYASOV

Təsisçilər:
Siyəzən Rayon İcra Hakimiyyəti başçısının aparatı və redaksiyanın jurnalist kollektivi

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydə alınmışdır
Qeydiyyat № 314
Redaksiyanın ünvanı: Siyəzən şəhəri, Şəhriyar küçəsi, 1ª

Qəzet "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur

Sifariş 2068
Tiraj 500
"Kapitalbank"ın Siyəzən filialı
AZ 20 AİİB
33080019445500250155
kod 200554
VÖEN 7100046791
telefon: 304-04-83